# Vətən haradan başlanır?

Bu suala cavab-insanın dünyaya göz açdığı məkandan. Bu məkan insana həyat verir, bu həyatı görə-görə, duya-duya yaşayır insan.



Vətəni yad baxışlardan qoruyanlar igid, qəhrəman sayılır və öz ömürlərini yadellilərlə mübarizədə əbədiyyət məhfumlu bir dünyaya gömürlər. Göylərə çəkilir, zirvələrdə ruhlara dönərək yaşayırlar. Onlar şəhidlərdir.

2020-ci il 27 sentyabrda başlanan müharibədə məhz Polad, Mübariz, İlqar və bu kimi igid ruhlu gənclərimiz zəfər tarixini öz qanları bahasına yazdılar və 3000-dən çox igidimiz şəhadətə qovuşdu.

Torpaq igid oğulların qanı ilə vətənləşib. Onun üzərində bitən hər bir təbii gözəllik, təbiətin zəngin florası bahar ömürlülərin qanı ilə suvarılıb, ana torpaq, ana vətən olub. Vətən torpağı da qədimdən şəhid olan igidlərin çiyinləri üzərindədir. Ruhları dumanlarla birgə, günəşin şəfəqlərinə dönüb özlərini hiss etdirərlər. Axı onlar ölməzliyin pik nöqtəsində, insanlığın ən ali zirvəsindədir.

2020-ci il 27 sentyabrda başlanan haqq savaşında ölkəmizin hər bölgəsindən şəhidlərimiz oldu. Bu bölgələrin siyahısına doğma rayonumuz Qəbələ də daxildir.

**Qəbələ rayonunun oktyabr şəhidləri**

Abdurahmanov Əfqan Ağasəf oğlu - Əmirvan (25.05.1976-10.10.2020), İsmayılov Natiq Əjdər oğlu - Bunud (05.03.1980-18.10.2020), Babayev İqbal Zəki oğlu - Qəbələ (10.09.1995-28.10.2020), Mikayıllı Mikayıl Miğfər oğlu - Mıxlıqovaq (24.09.1993-01.10.2020), Abdurahmanov Elvin Əbülfəz oğlu - Əmirvan (01.10.1996-02.10.2020), Əmiraslanov Ümman Namiq oğlu - Mıxlıqovaq (21.12.1996-03.10.2020), Kərimov İsmayıl Abbas oğlu - Tüntül (03.11.1990-06.10.2020), Süleymanov Vasif Akif oğlu - Bum qəsəbəsi (24.02.2002-06.10.2020), Cəlilov Tural Cəllad oğlu - Yeni Dızaxlı (10.04.1996-07.10.2020), Şirinov Tale Qadir oğlu - Çuxur Qəbələ (21.11.1996-08.10.2020), Yusifov İmaməddin Niyaməddin oğlu - Mıxlıqovaq (20.07.2002-10.10.2020), Mustafayev Elməddin Məhəmməd oğlu - Qəbələ şəhəri (01.05.2001-10.10.2020), Eyyubov Sərvan Yusif oğlu - Böyük Pirəli (02.11.1998-12.10.2020), Atakişiyev Rüstəm Zahid oğlu - Tüntül (24.12.2000-23.10.2020), Səfərçinov Xeyirbəy Cəlil oğlu - Yeni Dızaxlı(05.10.1993-24.10.2020), Bayramov Coşqun Ənvər oğlu - Qəmərvan (25.05.1991-24.10.2020), Bayramov Aydın Mətləb oğlu - Əmirvan (02.08.1997 -28.10.2020), Ağayev Tapdıq Çingiz oğlu - Tüntül (02.12.1990-30.10.2020), Heydərov Adəm İkram oğlu - Bum qəsəbəsi (26.03.2000-13.10.2020).

Torpağın dirəkləri şəhidlərdir. II Qarabağ-Vətən müharibəsində Ali Baş Komandanın güclü ordu yaratmaq və xalqla birləşərək torpaqlarımızın bir hissəsini yağı tapdağından azad etmək fikri tarixi qələbənin yaranması üçün əsas oldu. Vətən oğulları öz şücaəti, igidlik salnaməsi ilə yeni tarix yazdılar. Bu zəfər tarixidir.

Əlbəttə hər bir zəfər asanlıqla əldə olunmaz. Vətən qayalarında mamır olub bitdilər igidlərimiz. Çünki, onlara oğul dedi Vətən! Yad tapdağında olan torpaqlar igidlərimizin qanı ilə "sulandı". Vətən torpaqları şəhidlərimizin ruhlarının türklərdə deyildiyi kimi, "o-muzundadır"!

**"Qəbələ"**

# Dəyirmi masa keçirilmişdir

24 oktyabr 2023-cü il tarixində Qəbələ rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən əkinçilik sahəsində mövcud imkanlar, problemlər və perspektivlərə dair dəyirmi masa keçirilmişdir. İcra Hakimiyyətinin, Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyesterinin, Aqrar Kredit və İnkişaf Agentliyinin, Sahibkarlığın İnkişafı Fondunun, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Şəki-Zaqatala regional bölməsinin, Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin, "Azərbaycan Melorasiya və Su Təsərrüfatı" ASC-nin, "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC-nin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının, Azərbaycan Gübrə İstehsalçıları və İdxalatçıları Assosiasiyasının, Azərbaycan Toxumçular Assosiasiyasının nümayəndələri və sahibkarların iştirak etdiyi tədbirdə sahibkarların əkinçilik sahəsində qarşılaşdıqları çətinliklərin operativ həlli, ehtiyaclarının düzgün müəyyənləşdirilməsi və təmin olunması istiqamətində fikir mübadiləsi aparılıb.




# Şahmat üzrə zona birinciliyi

15 - 22 oktyabr 2023-cü il tarixlərində " Təhsil" Respublikası İdman Mərkəzinin Qax şəhərində keçirdiyi şahmat üzrə zona yarışlarında Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin 12 nəfərdən ibarət komandası da iştirak etmişdir. Onlardan üç idmançımız qalib yerləri tutmuşdur.

***1. Babayeva Ruhəngiz Cəsarət qızı, 2-ci yer.***

***2. Babayev Məhəmməd Cəsarət oğlu, 3-cü yer.***

***3. İbrahimova Fidan Parviz qızı, 3-cü yer.***

Qalibləri təbrik, məşqçi-müəllim Sahib Hüseynova isə təşəkkür edirik.



# Əmək yarmarkası keçirilmişdir




24 oktyabr 2023-cü il tarixində Qəbələ Mədəniyyət Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Şəki-Zaqatala Regional Məşğulluq filialının Qəbələ Xidmət şöbəsinin dəstəyi ilə əmək yarmarkası keçirilmişdir. Qəbələ rayonundan olan sakinlərin iştirak etdiyi əmək yarmarkasına 15 işəgötürən müəssisə tərəfindən 194 vakansiya çıxarılmışdır. Müraciət edənlərdən 120 nəfər işlə bağlı qeydiyyata götürülmüşdür.

# Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda arxeoloji tədqiqatların yeni mərhələsi

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Qəbələ arxeoloji ekspedisiyası tarix elmləri doktoru, professor Qafar Cəbiyevin rəhbərliyi altında Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun "Qala" ərazisində arxeoloji qazıntı işlərinə başlayıb. Ekspedisiya bir ay ərzində tədqiqatları davam etdirəcəkdir. Məqsəd əvvəlki illərdə tədqiqinə başlanmış IX qazıntı sahəsində şəhərin daha erkən dövrlərinə aid alt yaşayış qatlarını öyrənməkdir. Xatırladaq ki, Qala ərazisində qədim Qəbələ şəhər yerinin digər əraziləri ilə müqayisədə daha uzunmüddətli və intensiv yaşayış olub. Orada həm antik, həm erkən orta əsrlər, həm orta əsrlər, həm də son orta əsrlər dövrünə aid üst-üstə bir neçə mədəni təbəqə-yaşayış qatı mövcuddur. Hansı ki, həmin təbəqələrdən hər birində şəhər həyatının müxtəlif dövrlərini özündə əks etdirən olduqca zəngin və rəngarəng çeşidli maddi mədəniyyət qalıqları qeydə alınmışdır. Ekspedisiya rəhbərliyi əvvəlki illərdə olduğu kimi bu il də aşkar edilən yeni maddi mədəniyyət qalıqlarını Qəbələ Dövlət Tarix- Bədii Qoruğuna təhvil verməklə onların Qəbələ arxeoloji Mərkəzində nümayiş etdirilməsini məqsədəuyğun hesab edir.



# Abadlıq işləri davam etdirilir



Vətəndaşların müraciətinə əsasən, Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və aidiyyəti qurumların iştirakı ilə Həmzəli kəndinin şimal hissəsində sel sularının yuyaraq dağıtdığı körpü yenisi ilə əvəz edilmiş, çayın məcrası təmizlənmiş və yola qum-çınqıl yayılmışdır.